# Lənkəranda Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi konfrans keçirilib

**AMEA Lənkəran Regional Elmi Mərkəzi Quba Soyqırımı Memorial Kompleksi ilə birgə "1918-ci il Azərbaycanın bölgələrində azərbaycanlıların soyqırımı" mövzusunda Zoom platforması vasitəsilə elmi konfrans keçirib.**



Soyqırımı qurbanlarının xatirəsinin yad edilməsi ilə başlayan konfransın moderatoru AMEA Lənkəran REM-in elmi katibi, tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyev bildirib ki, ermənilərin xalqımıza qarşı törətdiyi 31 Mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya çatdırılması işi Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdır: "1998-ci il martın 26-da Heydər Əliyevin imzaladığı və böyük tarixi əhəmiyyət daşıyan "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. Fərmanın imzalanmasından 26 il ötür. Bu il Azərbaycan xalqı soyqırımının 106-cı ilini qeyd edir. Prezident İlham Əliyev tərəfindən "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli sərəncam imzalanmışdır. Bu sənədin ermənilər və onların havadarlarının yurdumuzun və yurddaşlarımızın başına gətirdikləri müsibətlərin həm ölkə, həm də beynəlxalq ictimaiyyətin mühakiməsinə çıxarılmasında rolu böyük və əvəzedilməzdir. Tarix heç zaman unudulmur, həm də yazılır".

Konfransda Quba Soyqırımı Memorial Kompleksinin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramovanın "1918-ci il Quba soyqırımı", Lənkəran REM-in direktoru, filologiya üzrə fəlsəfə doktoru Mehman Qaraxanoğlu Əliyevin "Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsərində 31 mart soyqırımı fəryadlarının əks-sədası", Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədovun "31 Mart soyqırımı: dini abidələr kontekstində", Lənkəran REM-in aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Samir Kərimovun "Soltan Məhəmməd bəy Qulubəylinin "Təlatümlü illər" əsərində Lənkəran qəzasındakı mart soyqırımının təsviri", Quba Soyqırımı Memorial Kompleksinin direktor müavini Mehriban Əliyevanın "Şərqi Anadoluda türk-müsəlman əhalisinin soyqırımı", AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Həsən Səfərinin "1918-ci ildə Urmiyada azərbaycanlıların soyqırımı", Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşı Namiq Bağırlının "Soyqırımı Memorial Kompleksinin əhəmiyyəti", Lənkəran REM-in aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Mayis Cəfərovun "Lənkəranda türk-müsəlman soyqırımının tarixşünaslığı (arxiv materialları əsasında)" və Quba Soyqırımı Memorial Kompleksinin mütəxəssisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblının "1918-ci il Neftçalada soyqırımı" mövzularında məruzələri dinlənilib. Natiqlər qeyd ediblər ki, 1918-ci il 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri azərbaycanlıları kütləvi şəkildə vəhşicəsinə qətlə yetirmişlər. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı tablolarından biridir. Rəsmi mənbələrə əsasən, soyqırımı nəticəsində 50 minə yaxın azərbaycanlı amansızcasına öldürülmüş, minlərlə insan itkin düşmüşdür.

Elmi konfransı yekunlaşdıran Lənkəran REM-in direktoru Mehman Qaraxanoğlu Əliyev tədbirin iştirakçılarına, onların kollektivlərinə və rəhbərlərinə minnətdarlığını bildirib, gələcəkdə də bu istiqamətdə əməkdaşlığın vacibliyini vurğulayıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 31 mart, № 66.- S.11.